

*Mövlud TEYMUR*

### ODLAR DİYARI

Bu vətən binadan bizim vətəndi,
Gözünə dönüm məm, gözüm vətəndi.
Hər şerim, hər nəğməm, sözüm vətəndi,
Mən doya bilmirəm gözəl vətəndən,
Tarixi ən qədim, əzəl vətəndən!

Tomrisi, Babəki, Həcər xanımı,
Bu vətən yolunda verdi canını.
Səttarxan ucaltdı şöhrət-şanını,
Koroğlu mənimdir, Nəbi mənimdir,
Xətai mənimdir, təbi mənimdir!

Füzuli dühası, Nizami adı,
Yandırdı düşməni, ağlatdı yadı.
Yorulmaq bilmədi Sabir qanadı,
Hörmətlə anıram Səməd Vurğunu,
Barmaqla göstərir bu aləm onu!

Rəsulu, Müşfiqi ilham cövhəri,
Cavidi, Cəlili sənət gövhəri.
Üzeyir yaşayır o gündən bəri,
Əvəzsiz sərvətdir hər sənətkarı,
Yaşadır, ucaldır doğma diyarı!

Bu Mövlud Teymurun sevdiyi torpaq,
Zülmət gecələrdə yandırdı çıraq.
Ağladı əsrdən-əsrə üzü ağ,
Odur ki, adlanıb Odlar diyarı,
Dünyaya səs salıb hər sənətkarı!

### AZƏRBAYCAN DÜNYAMIZ

Sənət dünyasıdır bizim dünyamız,
Cənnət dünyasıdır bizim dünyamız.
Səməd dünyasıdır bizim dünyamız,
"Azərbaycan" şeir dünyanı gəzdi!

Rəsul çeşid-çeşid rənglərdən dedi,
Davalı günlərdən, cənglərdən dedi.
Məğrur igidlərdən, zəfərdən dedi,
"Bəxtiyar" şeiri faşizmi əzdi!

Kürçaylı bütövlük dedi, hayqırdı,
Bu söz düşmənlərin belini qırdı.
Heyif, bir vaxt bütöv bir Vətən vardı,
İndi parçalanmış yerdi, tək səsdi!

Süleyman Rüstəmin "Cənub" şeiri,
Qeyrətə çağırdı mərd igidləri.
Baxdı həsrət ilə Təbriz şəhəri,
Dözdü qasırğaya, tufana dözdü!

Müzəffər Şükürün məqbul sözləri,
Eylədi ağanı bir qul sözləri.
Satdı Səhl Sumbat, satdı "düz"ləri,
Babək əzəmətdə qaladı, Bəzdi!

Keçdi qərinələr, keçdi əsrlər,
Oxudu, danışdı, bildi nəsillər,
İndən belə yenə deyəcək dillər:
Vətənin şöhrəti özünə bəsdi!

### AND YERİM

Vətənlə sevindim, ellə sevindim,
Dənizlə sevindim, göllə sevindim.
Çiçəklə sevindim, güllə sevindim,
Ömrüm uzunu!
Nə qədər canımda can var beləyəm,
Tükənməz arzuyam, eşqəm, diləyəm.
Yerdə ilahəyəm, göydə mələyəm,
Ömrüm uzunu!

And yerim qibləgah, sözüm Tanrıdı,
Mədinəm, Kərbəlam, Məkkəm uludu.
Yolum o müqəddəs "Quran" yoludu,
Ömrüm uzunu!

### TÜRKÜN BAYRAĞI

Türkün dalğalanan al bayrağı var,
Enməz ucalıqdan güc, dayağı var.
Alın açıqlığı, üz ağlığı var,
Hər millət yanında, hər xalq yanında!

Sevir azadlığı, müstəqilliyi,
Əmin-amanlığı, dinc, gözəlliyi.
Gülür bu arzuyla, kamla elliyi,
Hər millət yanında, hər xalq yanında!

Dava, müharibə, qırğın istəmir,
İşğalçı, qəsbkar, azğın istəmir,
Saralan istəmir, solğun istəmir,
Hər millət yanında, hər xalq yanında!

Qardaşlıq, xoş ülfət, dostluq istəyir,
Səmimi ünsiyyət, qılıq istəyir.
Təmizlik, bəyazlıq, ağlıq istəyir,
Hər millət yanında, hər xalq yanında!

Türkün dalğalanan istəyi budur,
Çalsın haqq qələbə dediyi budur.
Oxuduğu bu, ötdüyü budur,
Hər millət yanında, hər xalq yanında!

### TARİX ÇIXIR QARŞIMA

Dözümlüydüm, nəhrliydim, selliydim,
Özüm nəydim, nəydimsə də elliydim.
Analıydım, vətənliydim, dilliydim,
Qurban olum torpağıma, daşıma!

Bağçalıydım, bağatlıydım, bağlıydım,
Aranlıydım, Albanlıydım, dağlıydım.
Öz kökümə, öz soyuma bağlıydım,
Qurban olum milyon illik yaşıma!

Əsil məni, nəsil məni itirməz,
Ay-il məni, fəsil məni itirməz.
Tarix hələ belə ölkə yetirməz,
Qızıldan da tac qoyulub başıma!

Əvəzsizdir, Mövlud Teymur, dağ-daşın,
Nələr çəkmiş dünyagörmüş ağ başın.
Qəbirstanda qoyulandı başdaşın,
Hər addımda tarix çıxır qarşıma!

### GÖZƏLDİR HƏR YERİ İSMAYILLININ

Cənnət məkanıdır, behişt oylağı,
Könüllər oxşayır dağı, yaylağı.
Şirindir şırnağı, baldır bulağı,
Şərbətdir çayları İsmayıllının!

Qaya sərkərdəsi, meşə ordusu,
Yıxıb, kəsib atır hər kolu-kosu.
Qoynuna buraxmır pisi, quduzu,
Çoxdur dostu, yarı İsmayıllının!

Açıqdır süfrəsi, gendir ürəyi,
Başdan aşıb daşır halal çörəyi.
"Nuş olsun" deməkdir onun istəyi,
Boldur bəhrə, barı İsmayıllının!

Alması, heyvası, narı tükənməz,
Dövləti, sərvəti, varı tükənməz.
Uca dağlarında qarı tükənməz,
Sərindir yayları İsmayıllının!

Kəsilməz üç ayda qonaq-qarası,
Çadırlar qurular dağlar arası.
Mövlud da hüsnünə həsr edər yazı,
Gözəldir hər yeri İsmayıllının!

### GÖYÇAY ÇAYIM

Dağdan-daşdan axıb gəlir,
Zirvə-başdan axıb gəlir.
Bulud-yaşdan axıb gəlir,
Göyçay çayım, Göyçay çayım!

Əsrlərə ayna tutur,
Gah oyanır, gah da yatır.
Nəğmələri qəlbə yatır,
Göyçay çayım, Göyçay çayım!

Baba dağın sorağıdı,
Axın-axın sorağıdı.
Baxın, baxın, sorağıdı,
Göyçay çayım, Göyçay çayım!

Hər zərrəsi sehir dolu,
Bu torpağın dövlət-varı.
Məhəbbətdir xalqa sarı,
Göyçay çayım, Göyçay çayım!

### BASQAL

Bir əli ulduzda, bir əli ayda,
Zirvəsi günəşdən nur alı Basqal.
Dağlar tək qüdrətli, əzəmətlidi,
Hər yanı qayalı, kahalı Basqal!

Maralı talada otlayır otu,
Onu bihuş edir nanə, kəkotu.
Bir kimsə qaçırtdı onu, nə yordu,
İnsaflı, mürvətli, həyalı Basqal!

İldırımötürən, qada qovandı,
Yüz əsri ötsə də hələ cavandı.
Qonağa hər zaman həris, yavandı,
Xoşlamır qapıda qıfılı Basqal!

Açıq ürəklidi, geniş qəlblidi,
Coşqun həvəslidi, çılğın təblidi.
Həkimli, loğmanlı, həm təbiblidi,
Hər dərdə məlhəmli, şəfalı Basqal!

Zirvələr qoynunda, o bir zirvədi,
Qartal uçuşludu, o, yüksəkdədi.
O böyük ürəklə hər ürəkdədi
Köməcli, rişəli, yuvalı Basqal!

### BU TORPAĞI DAİM ÖYƏK

Gəlin salaq yolumuzu
Yaşıl çöllərə, çöllərə.
Arı kimi uçaq, qonaq
Əlvan güllərə, güllərə!

Nəğmə qoşaq hər yarpağa,
Büllur çaya, buz bulağa.
Bir sel olub axa-axa,
Gedək göllərə, göllərə!

Nə sərgərdan, sərsəm olaq,
Mətin olaq, ötkəm olaq.
Biz qoşulaq həmdəm olaq
Əsən yellərə, yellərə!

Bu torpağı daim öyək,
Hər qarışı sünbül-çörək...
Min könüldən "sağ ol" deyək
Bizim ellərə, ellərə!..

### GÖRÜRƏM

Düzü, açığını deyim dünyada,
İstəmirəm qara geyim dünyada.
Qara geyinəndə göyüm dünyada,
Dağılır, uçulur yerlər görürəm!

Toz-torpaq içində yağış göllənir,
Arx suyu "qudurub" daşıb sellənir.
Qorxudan şitillər yerində sinir,
Əsəndə naqafil yellər görürəm!

Bir uca dağların vecinə deyil,
Tükü tərpənməyir bir saniyə bil.
Vüqarla, təmkinlə baxır göyə bil,
Coşsa da qoynunda sellər görürəm!

Dünya qəribədi, göylər möcüzə,
Hər şimşək çaxanda görünür təzə!
Demirsən "Nuhdan"dır çaxır bu bizə,
Gizlənib altında sirlər görürəm!

Mövlud, təbiətin min qanunu var,
Bir anda neçə yol çönür ruzigar.
Xəzan yaya dönür, qış olur bahar,
Dəyişir donunu çöllər görürəm!

### HƏQİQƏT, ƏDALƏT

Bütün dünya bilir, kainat bilir,
Həqiqət, ədalət öz yerindədir.
Qaya qaydasında qoyulmasa da,
Dağ qüdrət rəmzində, düz yerindədir!

Yolçu öz yolunda, suçu arxında,
Çiçək çəmənində, meyvə bağında.
Şamama şaxında, xiyar tağında,
Üzüm öz yerində, öz yerindədirl

Mey piyaləsində, ney avazında,
Dad toyuq ətində, çiçək yazında.
Tutma çəlləyində, balıq duzunda,
Pendir motalında, cüz yerindədir!

Mövlud, o şeirə şeir deyərlər,
Verir ürəklərə xeyir deyərlər.
Onda ucaldarlar, onda öyərlər,
Misra axımında, söz yerindədir!

### BELƏDİR

Vətənin şairi, xalqın şairi,
Gərək hər an yazsın həqiqətləri.
Daim qamçılasın yalanı, şəri,
Qələmi toy olsun, varağı bayram!

Sevinsin hər oğlan, sevinsin hər qız,
Oxuduğu nəğmə olsun ay, ulduz.
Desinlər necə də gülür arzumuz
Açılanda səhər, düşəndə axşam!

Hər sözdən təbəssüm qonsun üzünə,
Sevinc bəxş olunsun nurlu gözünə.
Qoy imtahan versin özü-özünə,
Nədir zülmət gecə, nədir işıq, şam!?

Bacarsın qaradan ağı seçməyi,
Əyridən, nahaqdan haqqı seçməyi.
Həyatda bilsinlər ölçüb-biçməyi,
Olmasın heç zaman nə naşı, nə xam!

Çox olur şeirin əhəmiyyəti,
Yaxşı şer öyrədir mədəniyyəti.
Belədir şairin söz həqiqəti:
Qələmi büsatdır, varağı bayram!

### BOYANDI

Məhəbbət çınqı, oddu, yanğıdı,
Kimə şərbətdi, kimə ağudu.
Dərdlə anıldı Məcnunun adı,
Fərhadın ömrü qana boyandı!

Məhəbbət dərin şırımlar açdı,
Qəlb yaraladı, min ürək sancdı.
Sonra quruda qoyub da qaçdı...
Toza-torpağa, quma boyandı!

Ölümlər yaydı, itimlər verdi,
Şikəstlər doğdu, yetimlər verdi.
O, yaxşı, yaman, bir ömür sürdü,
İstili, buzlu kama boyandı!

Elədiyini özü bilmədi,
Görəcəyini, düzü, bilmədi.
Bu nə oyundu yüzü bilmədi,
Bir şərab dolu cama boyandı!

Mövlud Teymurun matı qurudu,
Suyu bulandı, lili durudu.
Kimlər soruşdu, de, kimlər sordu,
Dedim cavabı kəmə boyandı!

***İsmayıllı.***